

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 148 (23.560)

*5 sentyabr 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, 42 sinif otağı, 18 qrup otağı, 3 laboratoriya, kitabxana, kafe müəllim və tələbələrin ixtiyarına veriləcək. Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub. Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlətimizin başçısı və birinci xanım ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

Universitetin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə məlumat verib.



# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngayın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyətini Azərbaycanın Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirərək demişdir: Ölkələrimiz arasındakı əlaqələrin inkişafında ordu quruculuğu xüsusi yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ***Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının mühüm tərkib hissəsi*** kimi dəyərləndirdiyi ikitərəfli hərbi əməkdaşlığımız bu gün ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq davam və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu tədbirlərinə, xüsusilə bu sahədə qardaş Türkiyə ilə əməkdaşlığa mühüm əhəmiyyət verilir. 1997-ci ildən bu günə qədər Naxçıvan Muxtar Respublikasında 600-dən artıq Türkiyə hərbçisi xidmət keçib, Heydər Əliyev adına Hərbi Liseyi bitirən 120-yə yaxın kursant isə Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirib. Həmçinin 72 hərbi qulluqçusu Türkiyədə müxtəlif kurslarda olmuşdur. Son illər keçirilən birgə hərbi təlimlər də uğurlu əməkdaşlığın nəticəsi kimi məmnunluq doğurur.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirmiş, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə minnətdarlıq etmişdir.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngay səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlıq etmiş, Naxçıvanda olmaqdan böyük qürur hissi keçirdiklərini bildirmişdir. Ötən illərdə keçirilən birgə hərbi təlimlərdə iştirakını məmnunluqla xatırladan Şərəf Öngay ***"Bir millət, iki dövlət"*** prinsipinə əsaslanan ikitərəfli əlaqələrimizdə ordu quruculuğu sahəsində görülən işləri, xüsusilə birgə hərbi təlimlərin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Dövlət proqramı icra olunur*

# Naxçıvanda rəsmi statistikanın inkişafına xüsusi diqqət yetirilir

*Naxçıvan Muxtar Respublikasında statistika işinin müasir tələblər səviyyəsində qurulması sosial-iqtisadi göstəricilərin real faktlar əsasında düzgün müqayisəsinə və müxtəlif sahələr üzrə məlumatların sistemləşdirilməsinə şərait yaradır. Məhz bu fəaliyyətin planlı şəkildə həyata keçirilməsi ilə əldə edilən nəticələr cəmiyyətin ictimai-iqtisadi həyatının mühüm istiqamətlərini müəyyənləşdirmək üçün baza rolunu oynayır. Aparılan tədqiqatlar nəticəsində yayımlanan analitik məlumatlar muxtar respublikamızda inkişaf tempinin artaraq davam etdiyinin əyani sübutudur.*



Son illər Naxçıvanda statistika fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Muxtar respublikada inzibati ərazi dairələri üzrə statistika işçisi ştatı yaradılmış, kənd mərkəzlərində statistika işçiləri üçün otaq ayrılmışdır. Qeyd olunanlarla yanaşı, statistika orqanlarında maddi-texniki bazanın gücləndirilməsi diqqət mərkəzində olmuş, müasir infrastrukturun yaradılması və beynəlxalq standartlara cavab verən avadanlıqların quraşdırılması ilə bağlı tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Statistika vacib sahədir. Ona görə də muxtar respublikada bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Çünki statistik məlumatların düzgünlüyü muxtar respublikanın inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan verir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" da bu sahədə əldə edilən nailiyyətlərin sayının artmasında mühüm mərhələ təşkil edir. Dövlət proqramında müxtəlif istiqamətlər üzrə siyahıyaalmaların, statistik müayinələrin keçirilməsini nəzərdə tutan tapşırıqlar müəyyən edilmişdir. Aprel-iyun aylarında proqramın icrasına uyğun olaraq 2020-ci ilin birinci rübündə aparılan işçi qüvvəsinə və ev təsərrüfatları büdcələrinin tədqiqatına dair seçmə statistik müayinələrin həyata keçirilməsi davam etdirilmişdir. Həmçinin iyun ayında ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair seçmə statistik müayinənin keçirilməsinə başlanılmışdır.

Dövlət proqramında mühüm diqqət cəlb edən tapşırıqlardan biri də sənaye müəssisələrində istehsal avadanlıqlarının vəziyyəti və onlardan istifadəyə dair seçmə statistik müayinənin keçirilməsidir. Qeyd edilən tapşırığın icrası istiqamətində ikinci rübdə müvafiq proqram təminatı hazırlanaraq Statistik Məlumatlar Sistemində yerləşdirilmişdir. Aprel ayından keçirilməyə başlanan statistik müayinə iyun ayında yekunlaşdırılmışdır.

Proqramda təsərrüfatbaşına uçot sənədləri əsasında kənd təsərrüfatı ilə məşğul olan ailə kəndli və ev təsərrüfatlarının elektron məlumat bazasının yaradılması ilə bağlı statistika və yerli icra hakimiyyəti orqanları qarşısında tapşırıq müəyyən edilmişdir. İkinci rübdə qeyd edilən tapşırığın icrası istiqamətində müvafiq elektron məlumat bazasının yaradılması başa çatdırılmışdır. Muxtar respublika üzrə 1 yanvar 2020-ci il tarixə təsərrüfatbaşına uçot sənədləri əsasında kənd təsərrüfatı ilə məşğul olan ailə-kəndli və ev təsərrüfatlarının sayı 45 min 705 olmuşdur. Onlardan 1092-si Naxçıvan şəhərində, 17 min 813-ü Şərur, 8 min 288-i Babək, 6 min 288-i Ordubad, 4 min 794-ü Culfa, 3 min 732-si Kəngərli, 1251-i Şahbuz, 2 min 447-si isə Sədərək rayonlarında qeydə alınmışdır.

Dövlət proqramının icrasına uyğun sorğuların, seçmə statistik müayinələrin, siyahıyaalmaların vaxtında həyata keçirilməsi müxtəlif sahələr üzrə dolğun və dəqiq məlumatlara tələbatın ödənilməsinə əsaslı zəmin yaradacaqdır.

**"Şərq qapısı"**

# Adı ilə, dadı ilə məşhur Üstüpü məhsulları

*Ordubadın təbiətinin zənginliyinə və füsunkarlığına görə birbirindən gözəl kəndləri çoxdur. Onlardan biri də Üstüpüdür. Muxtar respublikanın bütün bölgələrində həyata keçirilən kompleks quruculuq tədbirlərindən öz nəsibini alan bu yaşayış məntəqəsi bu gün müasir Azərbaycan kəndinin bir nümunəsidir. Kəndin saf havası, dumduru bulaq suları, bərəkətli torpaqları və bu torpaqlardan əldə olunan keyfiyyətli məhsulları ilə qidalanan insanları uzunömürlülər sırasındadırlar. Sağlam bir ortamda, gözəl təbiətin qoynunda yaşayan kənd sakinlərinin bu gözəllikləri, sanki ruhuna da sirayət edib.*



Belə uzunömürlü, xoşsimalı üstüpülülərdən 94 yaşlı nurani bir babanın – Məhəmməd Əsədovun qonağıyıq. Məhəmməd baba ilə hər görüşümüzdə doğulub boya-başa çatdığı kəndini – Üstüpünü öz şirin Ordubad ləhcəsilə eyni həvəslə vəsf edər. Uzunömürlülüyün sirrini də elə bu torpaqda görür: “Torpaqlarımız bərəkətli, məhsullarımızın keyfiyyəti bir başqa, dadına isə doyum olmaz”, – deyir. Məhəmməd babanın ömür-gün yoldaşı, 84 yaşında öz gözəllik cizgilərini itirməyən Ziyada nənə də söhbətə qoşulur: “Özün də görürsən, ha tərəfə boylansan, göz işlədikcə uzanan əkin sahələridir. Kənd adamları bir qarış torpağı belə, əkilməmiş saxlamır. Onu bilirəm ki, torpağa əyilən heç zaman çarəsiz qalmaz. Cəfa çəkməzsən, səfa görməzsən”. Həyətyanı sahələrində lobya əkini diqqətimdən yayınmır. Həmsöhbətlərim nə qədər gücümüz çatmır desələr də, yenə də kiçik sahələrində torpağın bir qarışını belə, boş qoymağa vicdanları rahat buraxmayıb, əkiblər.

Mətləbə keçməzdən əvvəl kiçik bir haşiyə çıxıb bir qədər rayonun ümumi mənzərəsinə nəzər salmaq istərdim. Ordubad Azərbaycanın incisidir, cənnət guşəsidir. Həm tarixin zənginliklərini yaşadan muxtar respublikanın bir bölgəsi, həm də bağlar diyarı kimi tanınır. Ordubad deyəndə gözlərimiz önündə ilk olaraq ərik bağları və limon ağacları canlanır. Ordubad əriyi, Ordubad limonunun dadı uzaq Rusiya ellərinə də məlumdur.

“Naxçıvan tarixi” çoxcildliyinin ikinci cildində qeyd olunduğu kimi, hələ keçmiş dövrdə hər il orta hesabla Ordubaddan Tiflisə, oradan isə Ağstafa dəmir yolu vasitəsilə Rusiyanın mərkəzi şəhərlərinə 150 min pud quru ərik daşınırdı. Günümüzdə də Ordubadın istər yaş, istərsə də quru meyvələri ən gözəl və arzuolunan sovqat sayılır. Lakin Ordubad nemətləri sadaladıqlarımızla məhdudlaşmır. Bölgənin özünəməxsusluğu bir də ondadır ki, hər kəndində fərqli meyvə-tərəvəzlər yetişdirilir. Məsələn, ən yaxşı zoğalı Nüsnüsdən, narı Kotamdan, limonu Ordubad şəhərindən, Vənənd, Əndəmic, Dırnıs və digər yaşayış məntəqələrindən əldə etmək olar. Yəni bu kəndlərdə adıçəkilən meyvələrin yetişdirilməsinə xüsusi diqqət edirlər. Nar bağlarına Üstüpüdə rast gəlmədiyimiz kimi, kələm əkininə də Kotamda təsadüf etməmişik. Hər kəndin öz iqliminə, torpaq xüsusiyyətlərinə uyğun əkin həyata keçirilir və nəticədə, bol və keyfiyyətli məhsul əldə olunur.



Qonağı olduğumuz Üstüpü isə ucqar bir dağ kəndidir. Ondan aşağıda Çənnəb və Düylün yaşayış məntəqələridir. Yuxarıda yerləşən Məzrə kəndi isə Üstüpü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyə tabedir. Çənnəbə girişdən ta Məzrənin çıxışınacan göz işlədikcə uzanan kələm sahələri bu il də məhsulun bol olacağından xəbər verir. Ümumilikdə, kəndin 1500-ə yaxın sakini 482 təsərrüfatda birləşib. Arıçılıq, heyvandarlıq və maldarlıq kəndin təsərrüfatında yer tutsa da, əsas üstünlük kələm, kartof və lobya əkininə verilir. Bu 3 məhsul bazarlarda da “Üstüpü məhsulu” adı ilə illərdir ki, öz alıcısını tapıb. Üstüpülülər torpağın qiymətini yaxşı bilir, illərin sınağından çıxarıblar ki, torpağın qarası üz ağardar. Pay torpaq sahələrindən başqa həyətyanı təsərrüfatlarda da əkilən kələmlər gül buketi kimi göz oxşayır. Məzrədən dağ yolu ilə təqribən 12 kilometr məsafədə yerləşən Rumus yaylaqlarındakı əkinəyararlı torpaq sahələrini də qızıla çevirən üstüpülülərin yetişdirdiyi məhsulların dadına söz ola bilməz. Özləri də etiraf edir ki, yuxarı qalxdıqca iqlim dəyişir və belə sahələrdə becərilən məhsul daha keyfiyyətli olur. Bu il üstüpülülər 35 hektar sahədə kartof, 10 hektar sahədə lobya və 8 hektar sahədə kələm əkini həyata keçiriblər.

Üstüpü kələmi öz kövrəkliyi və dadı ilə seçilir. Sərini sevən bitki olduğu üçün bu torpaqlarda məhsuldarlığı da gözlənilən olur. Dədə-baba sortları ilə yanaşı, üstüpülülər alınma sortlardan da istifadə edirlər. Deyirlər ki, kələm bağladı, yəni yetişdisə, onu vaxtında kəsmək lazımdır, əks halda partlayıb iki yerə bölünər. Məhsul, əsasən, sərin yerdə, evlərin zirzəmilərində saxlanılır. Yerli sortları 15 gün, alınma sort kələmləri isə mart ayına kimi saxlamaq olur. Təsərrüfat sahibləri ilə söhbətimiz zamanı onu da bildirdilər ki, aprelin sonu, mayın əvvəllərində yerə salınan şitillərin ərsəyə gəlmə müddəti də fərqlidir. Tezyetişən, orta yaylıq və payızlıq kələm əkildiyini nəzərə alsaq, məhsulun yığımı iyul ayından başlanır və sentyabrın axırı, oktyabrın ilk 15 günlüyündə bitir. Bu sahədə kənd sakinlərindən Ülvi Məmmədli, Sərxan Bədəlov yaxşı təcrübə qazanıblar. Gənc təsərrüfatçı Ziyad Kərimov isə kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 26 dekabr tarixli Sərəncamı ilə “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib. Ziyadla söhbətimizdə bildirir ki, o, bu işi atası Aydından öyrənib. İndi onlar ailəlikcə əkinçiliklə məşğuldurlar, Rumusda 2,5 hektar sahədə kartof, 3 hektar sahədə kələm yetişdiriblər. Hər mövsümdə onlar kənd sakinlərindən də cəlb edərək 16-20 nəfərin məşğulluğunu təmin etmiş olurlar.



Ziyad Kərimov: “Biz bu sahədə yetərincə təcrübə qazanmışıq. Yetişdirdiyimiz məhsullar dağ suları ilə qidalanır. Kəndimizin içindən keçən və qar suları ilə qidalanan Düylün çayı öz mənbəyini Rumusdakı “Yağlı dərə” deyilən ərazidən götürür. Biz yalnız üzvi gübrələrdən istifadə edirik. Olduqca gəlirli sahələrdir. İl ərzində orta hesabla 100 tona yaxın kartof, 300 tona yaxın kələm tədarük edirik. Artıq alıcılar Üstüpü məhsullarını bazarlardan əldə edə bilərlər”.

Kənd sakinlərindən Zahid Ağasoy da həm kələm, həm də kartof əkir. Deyir ki, bu işdə yoldaşı ona kömək edir. İl ərzində sahələrdən 2 tona yaxın kartof, 15-20 ton kələm götürürlər. Hər şənbə-bazar Naxçıvan şəhərindəki kənd təsərrüfatı məhsullarının satış yarmarkasına, eləcə də Culfa, Ordubad, Babək bazarlarına da məhsullarını çıxarırlar. “Alıcıya məhsulunuzu necə təqdim edirsiniz?” – sualıma isə belə cavab verir:

– Bir kəlmə deyirik ki, Üstüpü məhsuludur. Çünki Naxçıvanda bu məhsulların dadını yaxşı bilənlər çoxdur və getdikcə də onların sayı artır.

Mövsümündə göy lobya alıb istifadə edənlər də az olmur. Lakin ordubadlılar, əsasən, qış üçün dən lobyanı satışa çıxarmağa daha çox üstünlük verirlər. Və Ordubad lobyası dadına görə qiymətdə də fərqlənir. Ağız dadını bilənlər də ordubadlıların, xüsusilə də üstüpülülərin sevərək yetişdirdiyi bu məhsula daha çox üstünlük verirlər. Zəngin Ordubad mətbəxində lobyadan geniş şəkildə istifadə edilir. Sübut olunub ki, lobya dəninin tərkibindəki zülal qidalılığına görə ət və süd zülallarına yaxındır. Lobyanın dənlərində zülal və yağdan başqa çoxlu karbohidrat (şəkər və nişasta), qiymətli mineral maddələr (kalium, kalsium, maqnezium, dəmir, fosfor), üzvi turşular (tiamin) və B2 (riboflavin), PP (nikotin turşusu), C (askorbin turşusu) vitaminləri vardır.

Bu sahə ilə kənd sakinlərindən Rəcəb İsmayılov, Pərviz Quliyev geniş məşğul olur. Amma, ümumilikdə, hər kəsin həyətində mütləq şəkildə lobya yetişdirilir. Yəni hər bir üstüpülü ehtiyacını ödəmək üçün lobya, kələm və kartof məhsulunu özü becərir.

*Bu aydan etibarən bazarlara geniş şəkildə çıxarılacaq Üstüpü məhsullarına hər biriniz rast gələcəksiniz. Qeyd-şərtsiz, tam əminliklə Üstüpü məhsullarından alıb süfrənizi dadlı nemətlərlə bəzəyə bilərsiniz. Sağlamlığımız necə və hansı məhsullarla qidalanmağımızdan çox asılıdır. Bunu düşünürüksə, öz bərəkətli torpaqlarımızda yetişən keyfiyyətli, zəngin tərkibə malik, ekoloji cəhətdən təmiz məhsullara üstünlük verək. Bu sırada Üstüpüdə yetişdirilən məhsulların öz yeri var.*

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# Üzümü ye, bağını soraqla

***Naxçıvanda üzümçülük kənd təsərrüfatı sahələri arasında hər zaman xüsusi çəkiyə malik olub. Tarixə nəzər salsaq, görərik ki, hələ 3000 il öncə qədim Naxçıvan diyarında yaşayan türk tayfalarının əsas məşğuliyyətini üzümçülük təşkil edib. Ona görə də uzun illərdən bəri burada xalq seleksiyası nəticəsində çoxlu sayda qiymətli üzüm sortları yaradılaraq nəsildən-nəslə ötürülüb.***



Tarixi mənbələrdə qeyd edildiyi kimi, qədim diyarımızda tez, orta və gecyetişən, xoşagəlimli əmtəə görünüşlü, ağ, qırmızı, sarı, qara və qəhvəyi kişmişi, əsgəri, xəlili, kürdəşi, həmçinin Naxçıvan hüseynisi, bəndi, bənənyari, miskalı, haçabaş, ağ tayfı, ağ aldərə, hənəqırna, Naxçıvan şanısı, Naxçıvan qara üzümü, sahibi, xan üzümü və sair üzüm sortları ulu babalarımızın bizə miras qoyub getdikləri ən gözəl nümunələrdir. Sevindirici haldır ki, dünyanın ən məhsuldar, ən keyfiyyətli, salxım və gilələrinin gözəl görkəmi ilə seçilən adını sadaladığımız üzüm sortları nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da özünə şöhrət qazanıb. Hazırda Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitajda saxlanılan, Naxçıvan ərazisindən tapılmış, VII əsrə aid üzüm salxımları ilə bəzədilmiş tunc at fiquru əyani şəkildə göstərir ki, bu diyarın yerli əhalisi çox qədimdən üzüm bitkisini necə sevib və qiymətləndirib.

Onu da qeyd edək ki, ötən əsrin 70-ci illərindən etibarən ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində respublikamızda üzümçülüyün yeni müstəvidə inkişafı təmin olunub. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü iqtisadi tədbirlər sayəsində emal müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, güclü mütəxəssis potensialı yaradılıb, üzümçülükdə xeyli uğurlar qazanılıb.

Lakin 90-cı illərin əvvəllərində ölkədə hökm sürən iqtisadi gərginlik bu sahənin inkişafına öz mənfi təsirini göstərib, istehsalçılarla istehlakçılar arasında normal münasibətlərin pozulmasına və nəticədə, bir sıra üzümçülük – şərabçılıq müəssisələrinin fəaliyyətinin dayandırılmasına səbəb olub. Bu problem qədim üzümçülük ənənələri olan Naxçıvandan da yan keçməyib.

Yalnız ölkəmiz müstəqillik əldə etdikdən və ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən Azərbaycanda üzümçülüyün inkişafına ciddi önəm verilib və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Bu gün ölkə iqtisadiyyatında xüsusi çəkisi olan üzümçülük muxtar respublikamızda prioritet sahələrdən biri sayılır. Son illər üzümçülüyün inkişafına diqqət daha da artırılıb, yeni üzüm plantasiyaları salınıb. Bu sahədə imzalanan sərəncamlar və qəbul olunan Dövlət proqramları qədim təsərrüfat ənənələrimizdən olan üzümçülüyə marağı artırıb. Yeni yaradılan belə təsərrüfatlardan biri də Babək rayonunun Nehrəm qəsəbəsindəki “Sumqala” üzümçülük təsərrüfatıdır. Burada 14 xarici ölkədən gətirilmiş məhsuldar üzüm sortu ilə yanaşı, onlarla keyfiyyətli yerli üzüm sortu da yetişdirilir.

Aqronom İsgəndər Abdullayevdən aldığımız məlumata görə, Nehrəm qəsəbəsindəki “Sumqala” üzümçülük təsərrüfatı 2015-ci ildə yaradılıb. Bu təsərrüfat 300 hektara yaxın sahəni əhatə edir. Buradakı üzüm bağından hər il minlərlə ton məhsul götürülür. Yığılan məhsullar yerli tələbatı ödəməklə yanaşı, Bakı şəhərinə, ölkəmizin digər bölgələrinə, həmçinin Rusiya və Ukrayna bazarlarına çıxarılır. Aqrotexniki tədbirlərin vaxtında və tələblərə uyğun həyata keçirildiyi təsərrüfatda hazırda 470 nəfərdən çox rayon sakini mövsümi işlə təmin olunub.



Süni suvarma sistemindən istifadə olunan ərazidə xüsusi metrologiya avadanlıqları da quraşdırılıb. Plantasiyanın hansısa hissəsində nəmlik səviyyəsi aşağı düşdüyündə dərhal məlumatlar sistemə ötürülür və suvarma prosesi avtomatik olaraq işə düşür.

İsgəndər Abdullayev deyir ki, 220 hektarını üzüm kolları təşkil edən təsərrüfat ərazisində əlavə olaraq meyvə bağı da salınıb. Üzümçülükdən yaxşı gəlir götürən təsərrüfatçı meyvə bağlarından da yüksək məhsuldarlıq əldə etmək üçün bütün lazımi tədbirləri görüb. Xüsusilə 25 hektar ərazini əhatə edən alma bağında artıq məhsul yığımı həyata keçirilib. Payızlıq alma ağaclarından isə yaxın vaxtlarda yüksək məhsuldarlığın alınması nəzərdə tutulur. Bundan əlavə, 5 hektar ərazidə şaftalı, 2 hektar ərazidə isə yeni badam, bu ilin ötən dövrü ərzində 22 hektar ərazidə 3 məhsuldar sortdan ibarət yeni gilas bağı salınıb. Xarici sort gilas ağaclarının əkildiyi bağdan hasil olunacaq məhsul gələcəkdə bu meyvəyə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsini təmin edəcək.

Hər il fəaliyyətini daha da genişləndirən “Sumqala” təsərrüfatı daxili bazarın müxtəlif sort və növ meyvələrlə təminatında böyük paya malikdir. Yaxın günlərdə üzüm bağlarından toplanılacaq məhsulların satışı təkcə muxtar respublikamız yox, həm də xarici bazarları əhatə edəcək. Bu isə “İxrac ili”nə ən mühüm töhfələrdən biri olacaq.

*Göründüyü kimi, bu gün muxtar respublikamızda üzümçülüyün gəlirli təsərrüfat sahəsinə çevrilməsi üçün hərtərəfli şərait mövcuddur. Qədim diyarımızın əlverişli iqlim və torpaq xüsusiyyətləri bu ənənəvi sahənin daha da inkişaf etdirilməsinə yeni imkanlar açır. Ümid edirik ki, dövlətimizin bu sahəyə göstərdiyi qayğı, təsərrüfat sahibləri üçün əlverişli imkanların yaradılması yaxın gələcəkdə muxtar respublikamızın üzümçülük təsərrüfatında yeni mərhələnin başlanmasına stimul verəcək.*

**Gülcamal TAHİROVA**

*1988-ci ilin ortaları idi. Şərurun isti yay günləri bir-birini əvəzləyirdi. Qeybəliyevlərin ailəsində səhər süfrəsi ətrafında 6 övlad, Adil və Nəzifə xanım əyləşmişdilər. Az sonra Adil tapşırıq üzrə maşın təmiri üçün Bakıya yollanacaqdı. İki övladını da özü ilə aparacağına söz vermişdi. Nəzifə bu gün Adilin getməyinə razı deyildi. Eşitmişdi ki, yollar təhlükəlidir. “Bəlkə, başqa vaxt gedəsən, bu gün nəsə ürəyimə yaxşı şeylər gəlmir”, – desə də, Adil onu toxtatmağa çalışırdı.*

## Bir əlində silah, bir əlində tibb çantası...

## *Sədərək döyüşlərinin “el qızı”* *(oçerk)*



Nəzifə səhər yeməyindən sonra ailə üzvlərini bağrına basıb həsrət dolu baxışlarla onları yolun sonuna qədər gözləri ilə izlədi. “UAZ” markalı maşın gözdən itsə də, evə girməyə ona nələrsə manea olurdu. Sanki əvvəlcədən pis xəbərlər alacağını hiss etmişdi. Ürəyinə qarışıq fikirlər gəlirdi. Qəribə hadisələr, səhnələr canlanırdı gözlərinin önündə. “Lənət şeytana”, – deyib, ağlına gələn pis fikirləri özündən uzaqlaşdırmağa çalışsa da, gözlərindən ixtiyarsız axan göz yaşlarına hakim ola bilmirdi. Başını ev işləri ilə qatmağa başladı. Çünki nə vaxt fikirli olsa, ev işləri görmək onu bir qədər fikirdən uzaqlaşdırırdı. Amma bir tərəfdən də gözü telefon aparatında qalmışdı. Sanki pis xəbər bu saat gələcəkdi. İki günü necə başa vurdu, özü də bilmədi.

Üçüncü günün axşamı idi. Günün bu vədəsinin ala-boz qaranlığı, ətrafın dözülməz sakitliyi onu lap həyəcanlandırırdı. Saatın əqrəbi 10-u göstərirdi. Qapı bərkdən döyüldü. Bu taqqıltı Adilin qapı döyməsinə oxşamırdı. O heç vaxt qapını belə möhkəm döyməzdi. Ona görə də yerində donub qalan Nəzifə qapıya getmək istəmirdi. Ancaq asta-asta yaxınlaşıb qapını açdı. Yoldaşının ağır yaralı vəziyyətdə gətirildiyini görəndə huşunu itirməkdən güclə saxladı. Ürəyinə gələn başına gəlmişdi. Sən demə, yolda mənfur düşmən erməni dəstələri maşına basqın edib Adili möhkəmcə döymüş, cibində olan-qalan pulunu da əlindən almışdılar... Qan içində olan Adilin gözləri Nəzifənin gözlərinin içinə zillənmişdi. Bu baxışlarda nələr yox idi? Uşaqlar sənə əmanət, onlara yaxşı bax! Sən onlara həm ana, həm də ata ol, Nəzifə. Qoru onları! Vətən təhlükədədir!..

Böyrəyindən aldığı ağır yaralardan Adil çox yaşaya bilməzdi. Bunu tibb bacısı kimi Nəzifə çox yaxşı başa düşürdü. Özünə ümid verirdi ki, hər şey yaxşı olacaq, bir tərəfdən də həyat yoldaşının düşmən əli ilə bu cür yaralanması onu çox sarsıdırdı... Bir müddət sonra Adil dünyasını dəyişdi.

Nəzifə yoldaşının son nəfəsində çəkdiyi əzabları göz önünə gətirir, ona verdiyi sözləri təkrarlayırdı: “Ömrümün sonuna, damarlarımda axan son damla qanıma kimi mənfur ermənilərlə mübarizə aparacaq, Vətənim uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşəcək, yaralı Azərbaycan oğullarını döyüş meydanından xilas edəcək, düşməni yana-yana qoyacağam. Həm döyüşçü, həm də tibb bacısı kimi əlimdən gələni mərdcəsinə yerinə yetirəcəyəm. Nəzifə hər gecə yatanda bu sözləri kəlmeyi-şəhadətinə çevirmişdi. İçindəki Vətən sevgisi, mənfur düşməndən intiqam almaq hissi onu döyüşə, mübarizəyə səsləyirdi. Nəzifə üçün Vətən bütün məramlardan ülvi, bütün sevgilərdən ali idi.

Qarlı gecələrdən biri idi. Gözlərinə yuxu getmirdi. Uşaqlar çoxdan yatmışdılar. Bir anlıq yoldaşının ölümünü xatırlayıb Nəzifə son qərarını verdi. Bu qərar onu torpaq uğrunda gedən döyüşlərdə iştirak etməyə çağırırdı. Axı onun Vətənə borcu vardı, yoldaşına söz vermişdi. Onları tutmalı idi. Vətən onu çağırırdı. Hansı yolla olursa-olsun getməli idi.

Səhərin açılmasını gözləməyə başladı. Cəmi 14 yaşı olan qızına hər şeyi izah edib, bacı-qardaşlarını ona tapşırıb, paltarlarını yol çantasına, tibbi ləvazimatlarını isə çantaya yerləşdirib evdən çıxdı. Birbaşa Sərhəd Dəstəsinə gəlib döyüşə getmək istədiyini bildirsə də, müsbət cavab ala bilmədi. Fikrində çox qərarlı olan Nəzifə döyüşə necə olursa-olsun, getməli idi. Vətənə qarşı sevgisinin önündə heç nə dura bilməzdi. Çünki onun bir amalı vardı: həm döyüşəcək, həm də yaralılara tibb bacısı kimi kömək edəcəkdi. Vətənin dar günündə onların imdadına çatacaqdı. Yoldaşına tibbi yardımı vaxtında göstərə bilməsə də, indi neçə Vətən övladının həyatını xilas edib öz mənəvi borcunu, vətənpərvərlik missiyasını yerinə yetirəcəkdi. Nəzifə qonşuluqda yaşayan taksi sürücüsü Yusifə Sədərəyə getmək istədiyini söylədi. Yusif: “Ay qonşu, sənin nə işin var orada? Orada ki, qızğın müharibə gedir, yazığın gəlmir özünə? Balalarını anasız qoyma!” Nəzifə bu sözləri eşitmirdi, fikri döyüş yanında qalmışdı.

Sədərəyə çathaçatda müharibənin toz-dumanı, güllələrin ətrafı bürüyən səs-küyü buradakı vəziyyətdən xəbər verirdi. Maşının şüşələrini qaraldan tüstü yolda hərəkəti də çətinləşdirirdi. Sürücünün gözlərindəki həyəcan aşkar hiss olunurdu. Dili dolaşa-dolaşa Nəzifəni bu fikrindən nə qədər yayındırmağa çalışsa da, bacarmadı. Nəzifənin döyüşə getdiyi günün axşamı bərk qar yağırdı. Koroğlu bulağı tərəfdə qızğın atışma səsləri eşidilirdi. Güllələr yağış kimi səpələnirdi. Soyuğun adamı qılınc kimi kəsməsi, yağan qarın hərəkəti çətinləşdirməsi döyüşçülər üçün də çətinlik yaratmışdı. Nəzifə zamanında onların köməyinə gəlmişdi. O, bir ana qayğısı ilə onların yeməklərini vaxtında verir, silahların daşınmasına köməklik edir, paltarlarını nizamlayır, qarı əridib su halına gətirərək döyüşçülərin imdadına çatırdı. Nəzifə bu döyüşdə aldığı “el qızı” ləqəbi ilə müharibənin ilk qadın qəhrəmanlarından idi ki, qorxu nədir bilmirdi. O, güllə yağışı altında yaralılara vaxtında tibbi yardım göstərir, xəsarət almış oğullarımızı səngərə zamanında çatdırırdı. Şəhidlik zirvəsinə ucalanların son baxışlarını yaddaşına yazır, igid oğullarımızın döyüşlərini iftixarla izləyirdi.

Həmin gün çörək azalmışdı. Hər çətinlikdən çıxış yolu tapan Nəzifə butulka ilə xəmiri yayıb, ocaq qurub lavaş bişirirdi. Hər kəs “el qızı”nın bişirdiyi çörəyi səbirsizliklə gözləyirdi. Ardı-arası kəsilməyən top səsləri lap şiddətlənmişdi. Bunu eşidən Nəzifə əlindəki işini yarımçıq qoyub tələsik səngərə tərəf qaçdı. Yerdə yaralı var idi. Güllələrin, açılan top atəşlərinin fərqinə varmayan tibb bacısı yerdə uzanmış cansız bədənə tərəf süründü. Əmisi oğlu Azər Seyidovun vurulmasına dözə bilməyib döyüşün düz ortasına atılan, güllə yağışına məhəl qoymadan düşmənləri məhv edən Məhərrəm Seyidov çox ağır yaralanmışdı. Nəzifə ilk tibbi yardım göstərsə də, onu Çərçiboğan kənd xəstəxanasına çatdırsa da, igid eloğlumuzu ölümün pəncəsindən xilas edə bilmədilər.

“El qızı” səngərə yenicə çatıb elə yaralılara yardım edirdi ki, Məhərrəm Seyidovun qəhrəmancasına şəhid olması xəbəri gəldi. Ardınca neçə belə oğullarımız şəhidlik zirvəsinə ucaldılar. Abbasəli Nəzərəliyev də Nəzifənin yaralı kimi imdadına yetişdiyi, lakin şəhidlik zirvəsinə ucalanlar arasında vardı. Ürəyindən bir güllə yarası alan Abbasəlinin son sözü “Ay ana” kəlməsi, olmuşdu. Həmin ərəfədə Nəzifənin özü 8 yerdən güllə yarası almasına baxmayaraq, gözünün önündə şəhidlik zirvəsinə ucalanların mərdliyi ona öz yaralarını, ağrılarını unutdurmuşdu...

Hələ 1992-ci ildə ümummilli lider Heydər Əliyev döyüş bölgələrində olduğu zaman Nəzifənin igidliyindən danışaraq, onun bu qəhrəmanlığını yüksək qiymətləndirmişdi. 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan şəhərinin Əliabad qəsəbəsində müharibə veteranları üçün inşa olunmuş binadakı mənzillərdən birini ona vermiş, daha sonra bu igid “el qızı”na “NAZ Lifan” markalı maşın da təqdim olunmuşdu. İndi həmin mənzilin pəncərəsindən hər gün Dövlət Bayrağı Meydanında dalğalanan üçrəngli müqəddəs bayrağımıza baxır, 2016-cı ildə şəhidlik zirvəsinə ucalan və yaxınlıqdakı qəbiristanlıqda dəfn olunan Qabil Orucəliyevin qəbrini “seyr edir”. Yaycı, Günnüt, Koroğlu bulağı, Əjdərkanın müdafiəsində yaxından iştirak edən, qırmızılar dəstəsinin qəhrəman üzvü, Sədərəyin müdafiəsində misilsiz xidmətləri ilə döyüş iştirakçılarının, şahidlərin qəlbində ucalmış “el qızı” bu gün o hadisələri tez-tez xatırlayır, döyüş səhnələrini gözləri önünə gətirir. Sərhəd bölgələrimizin qüdrətli ordumuz tərəfindən müdafiəsi nəticəsində əmin-amanlığın həmişəlik bərqərar olmasından fəxarətlə söhbət açır. İnanır ki, bu gün ona hərtərəfli qayğı göstərən, güclü hərbi strategiyaya malik dövlətimiz tezliklə işğal altında olan torpaqlarımızı geri alacaq, ərazi bütövlüyümüz təmin olunacaq... Çünki Vətən sevgidir. Müqəddəslik andıdır.

**Türkan HÜSEYNLİ**



## Vətən haradan başlayır...

*(esse)*

*VƏTƏN*... qüdrətinə sığındığım, qanımla, canımla uğrunda fəda olmağı gözə aldığım yurd yerim. Torpağına, daşına, isti qucağına sarılan, sarıldıqca doğmalaşan ana qədər əziz məskənim. Dünyaya yenicə göz açan körpə kimi saf, təmiz qəlbi ilə Azərbaycan adlı məmləkətdə böyüyən, böyüdükcə nəhəngləşən diyarım. Nəhəngləşdikcə şeirlərə, mahnılara, hekayələrə, dastanlara çevrilən iftixar mənbəyim. Gücüylə, qüdrətiylə coşqun duyğularıyla sərhədləri aşan cənnətməkanım. Gerçək sevgim, eşqinə, sevgisinə, keçmişinə, bu gününə sahib çıxan müqəddəs and yerim – Ana yurdum, Ana Vətənim. Hər zaman adının ucalığı ilə uzaq ellərdə dalğalanan, dalğalandıqca məğrur olan üçrəngli bayrağımın məbəd yeri – doğma Vətənim...

Əzəmətinə öyündüyüm, kölgəsinə sığındığım bu Vətən haradan başlayır? İlk aldığımız nəfəsdən... Sözümün yetdiyi, Vətən nidasının vurğulandığı, “Vətən” kəlməsinin duyulduğu, ayaq izlərimin toxunduğu cığırlardan başlayır. Ruhumun ucalıb pərvazlandığı yerdən, sonsuz Günəş şəfəqlərinin boylandığı yollardan başlayır Vətən. Səsimin titrədiyi, ünümün yetdiyi yerdən başlayır... Vətən sərhəddən başlayır. Tarixi yaddaşlarla silahlanan xalqdan başlayır Vətən. Harada ki, torpaq uğrunda canından keçən oğulların qəhrəmanlıq salnamələri dillərə dastan olub, Vətən elə oradan başlayır. Canı, qanı bahasına Vətənin hər daşına can qoyan oğulların qanı ilə sulanmış torpaqdan başlayır. Vətən qəhrəmanlıqlardan, şücaətlərdən başlayır. Vətən qələbələrdən, zəfərlərdən, reallıqlardan, mübarizə meydanlarından başlayır. Vətən səndən, məndən, elə bizdən başlayır...

## Naxçıvan Qarnizonu Qoşunlarında peşəkar hərbi tibb personalının nümunəvi xidməti üçün müasir şərait mövcuddur



Naxçıvan Qarnizonu Qoşunlarında xidmət keçən hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması işi daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq hazırda tikinti işlərinin aparıldığı və MDB məkanında ən böyük hərbi xəstəxanalardan olacaq Naxçıvan Muxtar Respublikası Mərkəzi Hərbi Hospitalını misal göstərmək olar. Bir məqamı da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2018-ci il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsində yeni hərbi xəstəxananın açılışında iştirak etməsi dövlət qayğısını hər zaman üzərlərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

Tibbin ən son nailiyyətlərindən olan avadanlıqlarla təchiz edilmiş hərbi hissələrin xəstəxana və tibb məntəqələrində müxtəlif bölmə, kabinə və laboratoriyalar fəaliyyət göstərir. Bütün hərbi xəstəxanalarda şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları mövcuddur. Müalicə və müayinə olunan hərbi qulluqçuların qidalanması, asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılır. Hərbi tibb personalı yaradılan hərtərəfli şəraitdən istifadə edərək hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərmək üçün əllərindən gələni əsirgəmirlər.

İstər həkim, istərsə də orta tibb işçilərinin peşəkarlıqlarının artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlərlə yanaşı, təkmilləşdirmə kursları da keçirilir. Təxliyə qruplarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində müasir təcrübənin öyrənilməsi və tətbiqi daim diqqət mərkəzindədir. Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən birgə döyüş atışlı taktiki və taktiki-xüsusi təlimlərdə tibb təminatının yüksək səviyyədə təşkili üçün hərbi həkim heyəti praktik fəaliyyətlərə cəlb edilir. Təlimlər zamanı peşəkar tibb personalı döyüş meydanından yaralıların səhra şəraitində açılmış tibb məntəqəsinə təxliyəsini və tibbi yardımın göstərilməsini məşq edirlər.

Muxtar respublika ərazisində koronavirus infeksiyasına qarşı aparılan zəruri qabaqlayıcı tədbirlər çərçivəsində Naxçıvan Qarnizonu Qoşunlarında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilərək sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır.

Şəxsi heyətin sağlamlığı vacib amil olduğundan hərbi hissələrin xəstəxana və tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin edilib və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Həyata keçirilən sanitariya-gigiyena, əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya işlərinin nəticəsidir ki, hazırda dünyanın mübarizə apardığı xəstəliklərdən uzaq olan hərbi qulluqçularımız “Təlimdə tər, döyüşdə zəfər” prinsipi ilə real döyüş şəraitində keçirilən təlimlərdə bütün tapşırıqları peşəkarcasına yerinə yetirir və ayıq-sayıq döyüş növbətçiliyi aparırlar.

**Nəriman NƏCƏFOV**

# Səngərim mənim



Sənə qədəm qoyanda dünya gülür gözümdə,
Çiçək açır, gül açır dağım-daşım, düzüm də.
Bir az mətinləşirəm, mərdləşirəm özüm də
Sən ey evim-eşiyim, doğma səngərim mənim!

Yağış döyür, qar döyür cığırımı, izimi,
Sən varsan bükə bilməz düşmən mənim dizimi.
Mən sənə güvənərək deyirəm öz sözümü,
Sən ey evim-eşiyim, doğma səngərim mənim!





Bir quş yayına bilməz mənim qırğı gözümdən,
Səngər məni qoruyur, mən isə səni, Vətən!
Bir əsgərəm, qoynunda çinartək bitmişəm mən,
Sən ey evim-eşiyim, doğma səngərim mənim!

Sağım, solum doludur ərlər, ərənlər ilə,
Öz sözünü döyüşdə şirtək deyənlər ilə,
Ayıq-sayıq durmuşuq keşikdə əldə güllə,
Sən ey evim-eşiyim, doğma səngərim mənim!

**Asim YADİGAR**









## Açıq havada film nümayiş olunub

*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin 2020-ci il üçün iş planına əsasən Naxçıvan Dövlət Film Fondu tərəfindən Əyləncə və İstirahət Mərkəzində açıq havada "Eviniz abad" filmi nümayiş olunub.*



Qeyd edək ki, nümayiş olunan ekran əsəri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında gürcü kinematoqrafçıları ilə birgə 2018-ci ildə istehsal olunub. Romantik komediya janrında olan, qeyri-adi əhvalat üzərində qurulmuş, azərbaycanlı oğlanla gürcü qızının məhəbbətindən bəhs edən filmdə hadisələr Azərbaycan və Gürcüstanda baş verir. "Eviniz abad" bədii filmində gürcü aktyorlar da yer alıb, çəkilişlər Azərbaycanda və Gürcüstanda aparılıb. Film iki xalqın dostluğu, qardaşlığı, qarşılıqlı xeyirxahlığı haqqındadır. Eyni zamanda hər iki xalqın məruz qaldığı dəhşətli müharibə və onun törətdiyi fəsadlara da geniş yer verilib.

Qeyd edək ki, filmin ssenari müəllifləri İmir Məmmədli və Mirsadıq Ağazadə, quruluşçu rejissoru Mirsadıq Ağazadə, quruluşçu operatorları Elxan Rüstəmov, Ruslan Ağazadə, bəstəkarı Rauf Əliyev, rəssamı Əziz Məmmədov, rejissoru Akif Rüstəmov, icraçı prodüseri Ülvi Qasımov, prodüseri Müşfiq Hətəmovdur.

Filmin nümayişi tamaşaçılarda xoş ovqat yaradıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin avqust ayında verilən elektrik enerjisinin həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3972,0 | 293,9 | 293,9 | 100,0 |
| 2. | Şərur rayonu | 2124,0 | 152,7 | 152,7 | 100,0 |
| 3. | Babək rayonu | 2317,0 | 170,6 | 170,6 | 100,0 |
| 4. | Ordubad rayonu | 1196,0 | 86,0 | 86,0 | 100,0 |
| 5. | Culfa rayonu | 1121,0 | 83,9 | 83,9 | 100,0 |
| 6. | Kəngərli rayonu | 832,0 | 61,3 | 61,3 | 100,0 |
| 7. | Şahbuz rayonu | 304,0 | 22,2 | 22,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 371,0 | 26,5 | 26,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26955,0 | 2426,0 | 2423,5 | 99,9 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **39192,0** | **3323,1** | **3320,6** | **99,9** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 39 milyon 192 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 323 min 100 manat olmuş, cəmi 3 milyon 320 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin avqust ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 807594 | 87210 | 87219 | 100,0 |
| 2. | Kəngərli rayonu | 264398 | 29642 | 29645 | 100,0 |
| 3. | Ordubad rayonu | 449734 | 48659 | 48663 | 100,0 |
| 4. | Naxçıvan şəhəri | 1025455 | 119839 | 119846 | 100,0 |
| 5. | Babək rayonu | 875380 | 98132 | 98135 | 100,0 |
| 6. | Culfa rayonu | 386132 | 42264 | 42265 | 100,0 |
| 7. | Şahbuz rayonu | 169081 | 20134 | 20134 | 100,0 |
| 8. | Sədərək rayonu | 85200 | 8916 | 8916 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8897855 | 1256241 | 1257562 | 100,1 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **12960829** | **1711037** | **1712385** | **100,1** |

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 667